

Hendrik Cekson Almaniyanın Münster şəhərində böyüyüb. O, Almaniyanın ən nüfuzlu tədqiqat universitetlərindən biri sayılan Azad Berlin Universitetinin (alm. Freie Universität Berlin) məzunudur və kinoşünaslıq, slavyan filologiyası və fəlsəfə ixtisasları üzrə təhsil alıb, uzun illər sərbəst müəllif, tərcüməçi, redaktor və ədəbi tədbirlərin təşkilatçısı kimi fəaliyyət göstərib.

H. Cekson rus dilindən və digər dillərdən kitablar tərcümə edib, çoxsaylı mükafat və təltiflərə layiq görülüb. Bu mükafatlar arasında BDI-nin təşviq mükafatı (Förderpreis), Wolfgang-Weyrauch mükafatı, "Neue Texte–Essaypreis" mükafatı və son olaraq 2025-ci ildə Perewest təqaüdü də vardır.

O, www.lyrikkritik.de internet portalının redaktorudur, müxtəlif ədəbi silsilələrin təşkilatçısıdır və Haus für Poesie ilə əməkdaşlıq çərçivəsində "Lyrikkritik Akademiyası"nı (Akademie für Lyrikkritik) təsis etmiş və ona rəhbərlik etmişdir. 2022-ci ildə PEN Berlin təşkilatının həmtəsisçilərindən biri olmuşdur. 2024-cü ildə isə "zæsur-poesiekritik.de" ədəbiyyat portalının təsisçi üzvü və ilk baş redaktoru olmuşdur.

2019–2021-ci illərdə Moskva Dövlət Linqvistik Universitetində müasir alman ədəbiyyatı və tərcümə fənlərini tədris etmiş, 2022–2025-ci illərdə Ştettin Universitetində və Hildesheim Universitetində "Yaradıcı yazı və mədəni jurnalistika" ixtisası üzrə dərs demişdir. O, həmçinin Avropanın müxtəlif universitetlərində tərcümə üzrə kurslar keçmiş və müasir alman ədəbiyyatı mövzusunda mühazirələr oxumuşdur.

Hendrik Cekson 2026-cı ilin fevral ayından etibarən Bakı Slavyan Universitetinin Germanistika İnstitutunda Alman Akademik Mübadilə Xidmətinin (DAAD) lektoru kimi fəaliyyətə başlayıb.